Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı
Sənəd Qəbulu Komissiyası
Quba şəhəri, Fətəli xan - 4
Tel. (023) 335-52-37 və ya (023) 335-20-92
Mobil: (050) 862 36 10, (050) 497 12 62
e-mail: yusif.abayev@adpu.edu.az

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı
2020/2021-ci tədris ili üçün tələbə adını qazanmış
şəxslərin onlayn qeydiyyatı haqqında məlumat

Tələbə adı qazanmış şəxslər 2020-ci il **25 sentyabr saat 09:00-dan 7 oktyabr 17:30-dək** sənədlərini onlayn qaydada qeydiyyatdan keçirməlidirlər. Qeydiyyatdan keçmək üçün tələbə adını qazanmış şəxs aşağıda siyahısı təqdim edilən sənədləri scan (elektron sürəti) edib **yusif.abayev@adpu.edu.az** e-mailinə göndərilməlidir.

1. Tələbə anketi (əlyazma qaydasında doldurulmuş qaydada); (Bax əlavə 1)
2. Tam orta təhsil haqqında sənəd (Attestat) və ya təhsilin əvvəlki mərhələsini bitirdiyi barədə sənəd (Kollec və ya ali təhsil müəssisəsinin 2019-2020-ci tədris ilinin məzunları üçün həmin təhsil müəssisəsini bitirmələri haqqında arayış və ya diplom);
3. Fotoşəkil (ağ fonda) 3×4 ölçüdə; (hicablı olanlar şəxsiyyət vəsiqəsindəki şəkli kimi)
4. Şəxsiyyət vəsiqəsi;
5. İlkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (oğlanlar üçün);
6. Tibbi arayış (Forma - 086) (şəkilli);
7. İllik təhsil haqqının ödəməsini (imkanı məhdud olan tələbələr təhsil haqqının yarısını ödəməklə qeydiyyatdan keçə bilər və ikinci yarısını 31.12.2020-dək ödəməlidirlər) təsdiq edən qəbz (ödənişli təhsil alacaq tələbələr üçün); **Ödənişli əsaslarla qəbul olub, dövlət tərəfindən təhsil haqqı ödənilən güzəşt kateqoriyasına aid olan şəxslərlə bağlı Əlavə 2-yə baxın.**

Təhsil haqqı ödənilməsi üçün Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının bank rekvizitləri:

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı
VÖEN: 4500163851
H/H: AZ05AIIB33070019446506487165

Bank: Kapital Bank ASC Quba filialı
Kod: 200651
VÖEN: 9900003611
Müxbir hesab: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. AII BAZ-2X

8. Tələbənin iş nömrəsi və şəxsi kabinetin istifadəçi adı (FİN).

9. Təhsil Nazirliyinin www.e-telebe.edu.az portalında bütün tələbə adını qazananlar qeydiyyatdan keçməlidir.

Ödənişli əsaslarla qəbul olub, dövlət tərəfindən təhsil haqqı ödənilən güzəşt kateqoriyasına düşən şəxslər müvafiq tələb olunan sənədləri də digər sənədləri ilə birlikdə e-mailə göndərməlidirlər.Bu sənədləri təqdim etməklə abituriyent mütləq elektron qeydiyyatdan keçməlidir. Qeyd olunan vaxtda sənədlərini onlayn qaydada təqdim etməmiş və ya natamam təqdim etmiş şəxslər qeydiyyatdan keçməmiş hesab olunacaq. Bu hal abituriyentin müvafiq ixtisasa yerləşdirilmədən imtina etməsi kimi qiymətləndiriləcək.

Qeyd edilmiş sənədləri göndərən abituriyentlərin şəxsi kabinetində bir gün sonra *"sizin sənədləriniz qəbul olduğunuz ali təhsil müəssisəsi tərəfindən təsdiqləndi"* yazısı daxil olacaq. Şəxsi kabinetinə bu məlumat qeyd edilmiş abituriyentin sənədləri təsdiqlənmiş hesab ediləcəkdir. Belə bir bildiriş almayan abituriyentlər mütləq **ADPU-nun Quba filialınnı Sənəd Qəbulu Komissiyası ilə** e-maillə əlaqə saxlamalıdırlar.

Əlavə 1.

Şəkil
3x4

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı
Tələbə Anketi

Adı, soyadı, ata adı_____

Şəxsiyyət vəsiqəsinin fin kodu_____

Vətəndaşlığı_____

Cinsi _____ Doğum tarixi _____Ailə vəziyyəti_____

Sosial vəziyyəti_____*(1 valideynini itirmiş /2 valideynini itirmiş)*

Sosial status_____*(Vətəndaş/qaçqın/köçkün)*

Hərbi mükəlləfiyyəti_____*(Hərbi mükəlləfiyyətli/Mükəlləfiyyətsiz)*

Milliyyəti_____

Sağlamlıq məhdudiyyəti_____*(1-ci qrup əlil/2-ci qrup əlil)*

Əlaqə məlumatı
Ev telefonu_____
Mobil telefonu _____
E-mail_____

Ünvan məlumatları
Doğulduğu yer _____*(Ölkə/şəhər/kənd/qəsəbə)*
Qeydiyyat ünvanı_____
_____*(Ölkə/şəhər/kənd/qəsəbə/küçə/ev/mənzil)*
Faktiki yaşayış ünvanı_____
_____ *(Ölkə/şəhər/kənd/qəsəbə/küçə/ev/mənzil)*

Ailə üzvləri
Ata adı, soyadı, əlaqə nömrəsi _____
Ana adı, soyadı, əlaqə nömrəsi_____

Sənəd məlumatları
Şəxsiyyət vəsiqəsinin seriyası _____Nömrəsi_____
Verilmə tarixi_____Bitmə tarixi_____

Sağlamlıq haqqında arayışın seriyası _____Nömrəsi_____
Verilmə tarixi _____Bitmə tarixi_____

Hərbi mükəlləfiyyət haqqında arayışın seriyası _____ Nömrəsi _____
Verilmə tarixi _____ Bitmə tarixi_____ _____

Qəbul forması _____
(Müsabiqə/Müsabiqədən kənar/Fərdi müqavilə/və s.)
Qeydiyyat tarixi _____ Qəbul balı _____
Təhsilalma forması_____ *(əyam/qiyabi)* Təhsil haqqı _____ *(Dövlət/ödənişlı)*
İxtisas _____

Keçmiş təhsil məlumatları
Məktəbin ünvanı_____*(Ölkə/şəhər/kənd/qəsəbə)*
Məktəbin adı _____
Başlama tarixi_____ Bitirmə tarixi_____
Təhsil aldığı dil _____

Attestat məlumatları
Attestatın seiyası_____Nömrəsi_____
Verilmə tarixi _____ Bitmə tarixi_____

(Kollec və s.)
Təhsil müəssisəsinin ünvanı_____ *(ölkə/şəhər/kənd/qəsəbə)*
Təhsil müəssisəsinin adı_____
Başlama tarixi_____Bitirmə tarixi_____

Təhsil aldığı dil_____

Məlumatın dolğunluğunu öz imzamla təsdiq edirəm_____

Əlavə 2.

2020-2021-ci TƏDRİS İLİNDƏ AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN QUBA FİLİALINA QƏBUL OLMUŞ TƏHSİL HAQQINDAN AZAD EDİLƏN TƏLƏBƏLƏRİN NƏZƏRİNƏ!
TƏHSİL HAQQINDAN AZAD EDİLMƏ HÜQUQLARI AŞAĞIDAKI TƏLƏBƏLƏRƏ ŞAMİL EDİLİR:

I. "MƏCBURİ KÖÇKÜN" STATUSU OLAN AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞLARI.

Dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli formada təhsil alan məcburi köçkünlərin təhsil haqqını ödəməkdən azad edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2003-cü il 1308 nömrəli Sərəncamı. *"Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 2011-ci il tarixli Sərəncamı.*

Tələb olunan sənədlər:

1. Rektorun adına ərizə;
2. Şəxsiyyət vəsiqəsinin surəti;
3. "Məcburi köçkün" statusunu əks etdirən sənədin (tələbənin və atasının) notarial qaydada təsdiq olunmuş surəti.
4. Ailə tərkibi haqqında arayış

II."ŞƏHID" AILƏSI STATUSUNU ALMIŞ AILƏNIN ÜZVÜ.

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununa əlvə edilmə barədə Azərbaycan Respublikası Qanunu: 12 sentyabr 2003-cü il ¹ 499 İİQD,"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanunu 3 sentyabr 1993-cü il ¹ 697.

- "Şəhid" ailə üzvləri aşağıdakılar hesab olunurlar;
- arvadı (əri);
- valideynləri;
- 18 yaşına çatmamış və uşaqları, 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı əlil övladları;
- qardaşları və bacıları — uşaq evlərində tərbiyə olunanlar;
- babalar və nənələr, qanunla onları saxlayan şəxs yoxdursa;
- əyani təhsil müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasında təhsil aldıqda 23 yaşa çatanadək ailə üzvü hesab edilirlər.

Tələb olunan sənədlər:

1.Rektorun adına ərizə;
2. Şəxsiyyət vəsiqəsi;
3. "Şəhid" statusu barədə sənəd;
4. Tələbənin doğum haqqında şəhədətnaməsi;
5. Şəhidin ölüm haqqında şəhədətnaməsi.

III. "AZƏRBAYCAN RESPUBLIKASININ ƏRAZI BÜTÖVLÜYÜNÜN, MÜSTƏQİLLİYİNİN VƏ KONSTİTUSİYA QURULUŞUNUN MÜDAFİƏSİ ZAMANI ƏLİL OLMUŞ VƏ AZƏRBAYCAN RESPUBLİKASININ AZADLIĞI, SUVERENLİYİ VƏ ƏRAZİ BÜTÖVLÜYÜ UĞRUNDA HƏLAK OLAN, HƏRBİ ƏMƏLİYYATLA

ƏLAQƏDAR İTKİN DÜŞƏN VƏ MƏHKƏMƏ TƏRƏFİNDƏN ÖLMÜŞ ELAN EDİLƏN VƏTƏNDAŞLARIN UŞAQLARININ TƏHSİL XƏRCLƏRİNİN ÖDƏNİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 18 MART 2014-CÜ İL TARİXLİ SƏRƏNCAMI.

Tələb olunan sənədlər:

1. Rektorun adına ərizə;
2. Şəxsiyyət vəsiqəsinin surəti;
3. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanıəlil olmuşvətəndaşın əlilliyi barədə (TSEK-in arayışı) sənədin surəti;
4. Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan şəxsin ölüm haqqında şəhədətnaməsinin notarial qaydada təsdiq olunmuş surəti;
5. Hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən şəxs barədə sənədin notarial qaydada təsdiq olunmuş surəti.
6. Ailə tərkibi haqqında arayış.

IV. VALİDEYNLƏRİNİ İTİRMİŞ VƏ VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ 23 YAŞADƏK UŞAQLAR.

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının 22 iyun 1999-cu il tarixli Qanunu (maddə 5).
"Təhsil haqqında" Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli Qanunu (maddə 14-8-1).

- **valideynlərini itirmiş uşaqlar**- hər iki valideyni vəfat etmiş 18 yaşınadək olan şəxslərdir;
- **valideyn himayəsindən məhrum olmuş uşaqlar**- hər iki valideyni:

məlum olmayan;

- valideynlik hüquqlarından məhrum edilən və ya valideynlik hüquqları məhdudlaşdırılan;
- xəbərsiz itkin düşmüş, fəaliyyət qabiliyyəti olmayan (fəaliyyət qabiliyyəti məhdudlaşdırılan) hesab edilən, ölmüş elan edilən;
- cəzaçəkmə müəssisələrində cəzasını çəkən;
- uşaqlarının tərbiyə edilməsindən və ya onların hüquq və mənafelərinin müdafiəsindən imtina edən;
- uşaqlarını tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi və digər analoji müəssisələrdən götürməkdən imtina edən;
- qanunla nəzərdə tutulmuş qaydada digər hallarda valideyn himayəsindən məhrum hesab edilən 18 yaşınadək şəxslərdir.
- Bir valideyni vəfat etmiş və o biri valideyni I və II qrup əlil olan 18 yaşınadək şəxslər də valideyn himayəsindən məhrum olmuş uşaqlar hesab edilirlər;
- **valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların arasından olan şəxslər**- valideynlərini itirmiş, habelə valideyn himayəsindən məhrum olmuş ali və orta ixtisas təhsili müəssisələrində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsində əyani formada təhsil alan 23 yaşınadək olan şəxslərdir;

Bu qəbldən olan şəxslər təhsil aldıqları müddətdə dövlət təminatına götürülür, onların təhsil xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödənilir və təqaüdün 2 mislindən az olmayan miqdarda təqaüdlə təmin olunurlar.

Tələb olunan sənədlər:

1. Rektorun adına ərizə;
2. Şəxsiyyət vəsiqəsinin surəti;
3. Vəfat etmiş valideynin ölüm şəhədətnaməsinin notarial qaydada təsdiq olunmuş surəti - 2 ədəd;

4. Bir valideyni vəfat etmiş digər valideynin I və II qrup əlil olan şəxsin tibbi sosial ekspert komissiyası tərəfindən təqdim olunan arayış (TSEK).
5. Ailə tərkibi haqqında arayış.

V. I VƏ II QRUP ƏLILIYI OLAN ŞƏXSLƏRİN, HABELƏ SAĞLAMLIQ İMKANLARI MƏHDUD 18 YAŞADƏK UŞAQLARIN TƏHSİL HAQQI XƏRCLƏRİNİN ÖDƏNİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 3 MAY 2019-CU İL TARİXLİ SƏRƏNCAMI.

(*ARK-nın 109-cu maddəsinin 32-ci bəndi*)

Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavr və magistratura (əsas baza ali tibb təhsili və rezdentura) təhsil səviyyələrində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan I və II dərəcə əliliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil müddəti ərzində təhsil haqqı xərcləri 2019-2020-ci tədris ilindən etibarən dövlət büdcəsinin vəsaiti hesabına ödənilsin.

Tələb olunan sənədlər:

1. Rektorun adına ərizə;
2. Şəxsiyyət vəsiqəsinin surəti;
3. I və II qrup əliliyi olan tələbələrin tibbi sosial ekspert komissiyası tərəfindən təqdim olunmuş arayışı (TSEK).
4. Ailə tərkibi haqqında arayış.

ADPU-nun Quba filialının Sənəd Qəbulu Komissiyası

Xüsusi qeyd: Tələbə qeydiyyatdan keçdikdən sonra ADPU-nun Quba filialında dərslər başlayan zaman ilk dərsə gələrkən e-maillə qeydiyyat üçün göndərdiyi bütün sənədlərin əsillərini Sənəd Qəbulu Komissiyasına təqdim etmək üçün özü ilə gətirməlidir.

25.09.2020